


# Ədəbiyyatımızda milli realizmin təmsilçisi və tarixi romanlar müəllifi

**Bugün Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, milli realist nəsr və romançılığın inkişafında mühüm xidmətləri olan Yusif Vəzir Çəmənzəminlinin doğum günüdür. O, təkcə yazıçı deyil, həm də alim-tədqiqatçı, folklorşünas, etnoqraf və ictimai-siyasi xadim kimi də fəaliyyət göstərib.**

Dövlət xadimi, yazıçı, nasir, bütün həyatını Azərbaycan xalqının rifahına, mənəvi səviyyəsinin yüksəlməsinə, maariflənməsinə həsr edən, "Əli və Nino" adlı sevgi romanının müəllifi, repressiya qurbanı Y.V.Çəmənzəminli Azərbaycanın səfalı yerlərindən biri olan Şuşa şəhərində anadan olmuşdur. Atası Məşədi Mirbaba Mirabdulla oğlu Vəzirov Şuşa bəylərindən biri idi. Yusif Vəzir Çəmənzəminlinin daşıdığı "Vəzirov" soyadı XVIII əsrdə Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olan Mirzə Əliməmmədağanın tutduğu vəzir vəzifəsi ilə əlaqədar olaraq nəsildən-nəslə keçmişdir. Bu ad Çəmənzəminlinin soy-kökündən gələn nüfuz və mədəni irsin simvoludur. Məşədi Mirbaba bu nəslin nümayəndəsidir və "Vəzirov" soyadı onların ailəsinin tarixən dövlət vəzifələrində fəaliyyət göstərməsi ilə bağlıdır.

1797-ci ilin iyun ayında İran hökmdarı Ağaməhəmməd şah Qacar Şuşanı zəbt edərkən Qarabağ xanı İbrahimxəlil xan tərəfindən Türkiyəyə səfir təyin edilmiş Mirzə Əliməmmədağanı dustaqlıqda qətlə yetirir. Lakin taleyin maraqlı bir dönüşü nəticəsində Yusif Vəzir 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədəki ilk səfiri olur. Uzun illər sonra Çəmənzəminli ailəsinin yarımçıq qalmış diplomatik missiyasını həyata keçirir. Bu, həm Azərbaycan tarixi, həm də Vəzirov nəslinin taleyi baxımından simvolik əhəmiyyət daşıyır. Çəmənzəminlinin Türkiyədə səfir kimi fəaliyyəti Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında böyük rol oynamış və Cümhuriyyətin beynəlxalq arenada tanınmasına töhfə vermişdir.

Gənc Yusif anasına verdiyi vədə sadiq qalır. O deyirdi ki, əgər gələcəkdə məşhur adam olsa, mütləq Cənubi Azərbaycandan köçüb gəlmiş sədaqətli qonşularının kəndlərinin adını özünə təxəllüs kimi qəbul edəcək. Yusif Vəzir sözünün üstündə durur və "Çəmənzəminli" təxəllüsünü götürür. Bu təxəllüs onun həmin ailəyə, onların mənşəyinə və tarixinə bəslədiyi dərin hörmət və məhəbbətin ifadəsidir. Çəmənzəminli təxəllüsü yalnız bir yazıçı adı kimi deyil, həm də Yusif Vəzirin mənəvi dəyərlərinə və bağlı olduğu mədəniyyətə sədaqətini simvolizə edir.



Qeyd edək ki, Yusif Vəzir Çəmənzəminli Azərbaycan milli realizminin əsas təmsilçilərindən biri kimi ədəbiyyatımıza böyük töhfələr verib. Onun əsərlərində milli-mənəvi dəyərlərin, Azərbaycan xalqının həyatının, adət-ənənələrinin və sosial problemlərinin təsviri geniş yer alır. Bundan başqa, ictimai-siyasi fəaliyyətində Azərbaycanın müstəqilliyi və mədəni irsinin qorunub saxlanması istiqamətində mühüm işlər görüb. Ədibin bədii nəsri yalnız özünəxas yazı üslubu və toxunduğu problemlərin aktuallığı ilə deyil, həm də əsərlərinin janr rəngarəngliyi ilə də diqqət çəkir. Janr zənginliyi onun yaradıcılığını daha maraqlı və çoxşaxəli edir. O, müxtəlif mövzulardan bəhs edərək hər bir mövzuya uyğun janrlardan istifadə edib. Həmçinin əsərlərində tarixi motivlərdən tutmuş, sosial problemlərə qədər geniş mövzu dairəsi əhatə olunub ki, bu da yazıçının müasir və gələcək nəsillər üçün dəyərli ədəbi miras qoymasına səbəb olub.



Onun tarixi romanları ilə yanaşı, sosial-psixoloji əsərləri də oxucular arasında geniş maraq doğurub. "İki od arasında" əsəri tarixi mövzuda yazılmış əsərlər arasında xüsusi yer tutur. Bununla yanaşı, Çəmənzəminli dərin psixoloji müşahidələrə əsaslanan bədii təsvirləri ilə də oxucuları cəlb edib və müxtəlif taleləri qələmə alaraq Azərbaycan nəsrini zənginləşdirib. Onun məşhur "Studentlər" romanı milli ruhu, sosial problemləri və insan talelərini realist üslubda təsvir edən dəyərli əsərlərdən biridir. Yusif Vəzir Çəmənzəminli bir çox hekayələrini "Maarif və mədəniyyət" jurnalında və başqa mətbuat orqanlarında çap etdirib. Sonralar isə "Qızlar bulağı", "1917-ci il" adlı romanları çap olunub.

Yusif Vəzir rus klassiklərinin, o cümlədən L.Tolstoyun, İ.Turgenevin, A.Neverovun, N.Qoqolun, B.Lavrenevin, L.Seyfulinanın, V.Hüqonun və bir çoxlarının əsərlərini və kino-ssenarilərini Azərbaycan dilinə tərcümə edib. Azərbaycan dilində ilk səsli film olan məşhur "Çapayev" filminin ssenarisini də 1936-cı ildə ana dilimizə çevirib. Lakin 1937-ci ilin aprel ayında tamamladığı "İki od arasında" tarixi romanını işdən çıxarıldığı üçün çap etdirmək ona nəsib olmayıb. Öz dövründə nəşr etdirə bilmədiyi bu əsər ilk dəfə 1960-cı ildə "Azərbaycan" jurnalında müəyyən ixtisarla "Qan içində" adı ilə çap olunub.

1937-1938-ci illərdə Azərbaycanın bir qrup elm və mədəniyyət xadimləri, o cümlədən Bəkir Çobanzadə, Nəriman Şahsuvarov, Həbib Zeynallı və Hüseyn Nəzərlinin ifadələri əsasında 1940-cı il yanvarın 25-də Urgəncdə Yusif Vəzir həbs olunaraq Bakıya gətirilib. O, altı aya yaxın Keşlə həbs düşərgəsində saxlanıldıqdan sonra 1940-cı il iyulun 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndərilib. İşgəncələrə dözməyən yazıçı 1943-cü il yanvarın 3-də Nijni Novqorod vilayətində yerləşən həmin həbs düşərgəsində dünyasını dəyişib və Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn edildi. O, 1956-cı ildə bəraət alıb.

Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığını araşdıran tədqiqatçılar qeyd edirlər ki, onun qayınanası Kiçikxanım Acalova Stalin repressiyası dövründə Çəmənzəminlinin ədəbi əsərlərini qoruyub saxlayıb. Bu fədakarlıq sayəsində Çəmənzəminlinin qiymətli əsərləri bu gün ən zəngin ədəbi arxivlərdən biri hesab olunur.

Ədibin yaradıcılığı Azərbaycan ədəbiyyatında silinməz izlər qoyub. Yusif Vəzirin faciəli həyatı və yaradıcılığı ilə yanaşı, onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələr hələ uzun illər boyu oxucular və tədqiqatçılar tərəfindən dəyərləndiriləcək.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**